**UOT: 821.512.162**

**Nazir ƏHMƏDLİ**
Atatürk Mərkəzi
**nahmed61@mail.ru**

# BİR DAHA CƏLİL MƏMMƏDQULUZADƏNİN DOĞUM TARİXİ HAQQINDA

**Açar sözlər:** Mirzə Cəlil, Naxçıvan, H.Məmmədquluzadə, əlyazma, A.Zamanov, Ə.Şərif, İ.Həbibbəyli, Qori, seminariya

**Keywords:** Mirza Jalil, Nakhchivan, H.Mammadguluzadeh, manuskript, A.Zamanov, A.Sharif, I.Habibbayli, Gori, seminaria

**Ключевые слова:** Мирза Джалил, г.Нахичевань, Г.Мамедкулизаде, рукопись, А.Заманов, А.Шариф, И.Габиббейли, Гори, семинария

Böyük Azərbaycan yazıçısı Mirzə Cəlil Məmmədquluzadənin doğum tarixi haqqındakı məqalədə [5, s.362-372] həyat yoldaşı Həmidə xanım Məmmədquluzadənin "Mirzə Cəlil haqqında xatirələrim" [8] (Tərcümə edən: prof. A.Zamanov) kitabına da istinad vermişdik. Məqaləni çap etdirdikdən sonra H.Məmmədquluzadənin digər tərcüməçisi M.Vəzirin nəşr etdirdiyi yeni tərcümə [8] diqqətimizi çəkdi. Qeyd edək ki, M.Vəzirin nəşr etdirdiyi variantda kitabın adı professor A.Zamanovun tərcümə variantından fərqlidir. A.Zamanov onu "Mirzə Cəlil haqqında xatirələrim", M.Vəzir isə "Xatirələrim" adı ilə nəşr etdirmişdir. İkinci ciddi fərq Mirzə Cəlilin doğum tarixi ilə bağlıdır. A.Zamanovun tərcüməsində: "Mirzə Cəlil, pasportunda yazıldığına görə, 1869-cu ildə doğulmuşdur" [8], M.Vəzirin tərcüməsində isə "bəzi mənbələrə görə, Mirzə Cəlil təxminən 1865-1866-cı illərdə anadan olub" getmişdir [8, s.81].

Tərcümələr arasında ciddi fərqlər olduğuna görə H.Məmmədquluzadənin əlyazmasının orijinalına müraciət etmək qərarına gəldik.

H.Məmmədquluzadənin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan 3 əlyazması var. Onlardan birincisi atası Əhməd bəy Cavanşir haqqındadır və "Əhməd bəy Cavanşirin həyatı" adlanır. Rus dilində olan bu əlyazmanın sonundakı "20 sentyabr 1944-cü il" tarixi, fikrimizcə, onun bitirilmə tarixidir. Onun ikinci əlyazması "Mirzə Cəlil Məmmədquluzadənin (Molla Nəsrəddin) tərcümeyi-halı" adlanır və 4 saxlama vahidindən ibarətdir. Üçüncü əlyazma isə "Xatirələrim" adlanır və 10 saxlama vahidindən ibarətdir.

Müəllifin "Mirzə Cəlil Məmmədquluzadənin (Molla Nəsrəddin) tərcümeyi-halı" əlyazmasının saxlama vahidlərini nəzərdən keçirdikdə məlum oldu ki, M.Vəzir tərcümə etdiyi mətnə özündən sözlər artırmışdır. Cəlil Məmmədquluzadənin şəxsi arxivinin saxlandığı 6-cı fonddakı 377 nömrəli saxlama vahidində deyilir: "Mirzə Cəlil təxminən 1865-1866-cı ildə doğulmuşdur. Mirzə Cəlilin babası ötən əsrin 40-cı illərində İranın Xoy şəhərindən Naxçıvan şəhərinə köçmüşdür. Mirzə Cəlilin atası Məşədi Məmmədqulu kiçik ikən atası ilə İrandan gəlmişdir. Məşədi Məmmədqulunun Naxçıvan şəhərində balaca dükanı olub və duz satırmış. Naxçıvan, Oltı və Kağızmanın məşhur duz iltizamçıları Canpoladov qardaşları 1877-ci il Türkiyə müharibəsində ona daşımaq üçün duz vermiş və Məşədi Məmmədqulu öz vəziyyətini bir qədər yaxşılaşdırmışdır. Təxminən 1860-cı ildə Naxçıvan sakini Sara Babayeva ilə evlənmişdir. Onun qardaşı Əlişdan Babayev yaxşı bağban olmuşdur (O,

Mirzə Cəlildən çox yaşadı və 1933-cü ildə öldü. Onun mənə yazdığı məktubu saxlayıram)".

Göründüyü kimi, M.Vəzir elə ilk cümlədəki "bəzi mənbələrə görə" sözlərini özündən artırmışdır.

Həmidə xanım yazır ki, Məşədi Məmmədqulunun dörd oğlu və bir qızı olub. Cavan rəhmətə gedən böyük oğlu Mirzə Yusif saatsaz imiş. Mirzə Cəlil onun ikinci oğludur. Üçüncü oğlu M.S.Ordubadinin "Dumanlı Təbriz" romanında adı çəkilən İran inqilabçısı Mirzə Ələkbərdir. Dördüncüsü kiçik yaşlarında ölən Xəlildir. Beşinci övladı isə xatirələrin qələmə alındığı vaxt artıq həyatda olmayan qızı Səkinə idi.

Müəllif Mirzə Cəlilin atası Məşədi Məmmədqulunun tatarca (azərbaycanca – **N.Ə.**) yaxşı savadının olduğunu və oğlu Cəlilə yazdığı bir məktubun da onda olduğunu, hələ kiçik yaşlarından qabiliyyəti ilə seçildiyinə görə Cəlili Mirzə adlandırdıqlarını bildirir. Cəlili 7-8 yaşlarında Hacı Molla Bağırın türk məktəbinə vermişlər. Sonra isə Naxçıvan şəhərindəki Molla Əlinin məktəbinə qoymuşlar. Mirzə Cəlil tez-tez xatırlayırdı ki, həmin məktəbdə şagirdlərin, o cümlədən onun özünün də ayaqlarını falaqqaya salıb döyürmüşlər.

M.Vəzir "türk məktəbinə – mədrəsəyə vermişdi" yazaraq, ciddi məna təhrifinə yol vermişdir. Çünki mədrəsə 4 illik mollaxana məktəbindən sonra gələn daha yüksək təhsil pilləsidir. Tərcüməçi "Molla Əlinin məktəbi" ifadəsini bir daha "Molla Əlinin mədrəsəsi" kimi vermişdir. Beləliklə, M.Vəzirin tərcüməsi keyfiyyət baxımından qüsurludur. Məqsədimiz tərcümənin bütün nöqsanlarını araşdırıb üzə çıxarmaq olmadığına görə bununla kifayətlənirik.

H.Məmmədquluzadə daha sonra yazır ki, Mirzə Cəlili sonra şəhərdəki rus məktəbinə qoyublar və Mirzə Cəlil orada dörd ilə yaxın oxumuşdur. Əslində isə 1837-ci ildə Naxçıvan şəhərində açılan həmin rus-tatar qəza məktəbi üçillik idi.

"Mirzə Cəlil Məmmədquluzadənin (Molla Nəsrəddin) tərcümeyi-halı" adlanan 389 nömrəli saxlama vahidi, fikrimizcə, 377 nömrəli saxlama vahidindən köçürülmüşdür. Əvvəlki saxlama vahidində müəllifin xeyli düzəlişləri, qeydləri və mətnin kənarlarına yazılmış əlavələri vardır. 389-cu saxlama vahidində həmin düzəliş, qeyd və əlavələri artıq mətndə görürük, başqa sözlə, müəllif onun üzünü köçürərkən onları mətnə keçirmişdir. Bu saxlama vahidində Həmidə xanım əvvəlcə "Mirzə Cəlil təxminən 1865-ci və ya 1866-cı ildə doğulmuşdur" yazmış, sonra isə həmin qələmlə 1865 rəqəmini 1866, 1866 rəqəmini isə 1867 edərək, cümləni "Mirzə Cəlil təxminən 1866-cı və ya 1867-ci ildə doğulmuşdur" şəklinə salmışdır. Göründüyü kimi, Həmidə xanım Mirzə Cəlilin doğum tarixində tərəddüdlü mövqe tutmuş və müxtəlif rəqəmlər yazmışdır. Mirzə Cəlil haqqında verilən digər məlumatlar isə 377 nömrəli saxlama vahidində yazılanların təkrarıdır.

389 nömrəli saxlama vahidinin sonuncu və sonuncudan əvvəlki səhifələrində müəllif "2 may 1935-ci il" yazmışdır. Bu tarix onun həmin tərcümeyi-halı bitirdiyi tarixdir.

Əlyazmanın 378 nömrəli saxlama vahidi də xüsusi maraq doğurur. Burada, demək olar ki, düzəlişlər yoxdur və həcmi 389 nömrəli saxlama vadidindəkindən daha çoxdur. Aydın olur ki, müəllif onu 389 nömrəli saxlama vahidindən köçürmüş, düzəlişləri mətnə keçirmişdir. Bu saxlama vahidində Həmidə xanım Mirzə Cəlilin doğum tarixi haqqında yeni rəqəm göstərir: "Pasportuna görə Mirzə Cəlil 1869-cu ildə anadan olmuşdur".

Həmidə xanımın "Mirzə Cəlil 1869-cu ildə anadan olmuşdur" deyil, "pasportuna görə Mirzə Cəlil 1869-cu ildə anadan olmuşdur" cümləsi o deməkdir ki,

o, həmin tarixə o qədər də etibar etməmiş və əlacsız qaldığından pasportundakı tarixi göstərməli olmuşdur.

Beləliklə, məlum olur ki, H.Məmmədquluzadə Mirzə Cəlilin doğum tarixi haqqında dörd müxtəlif rəqəm verməklə dəqiq bir fikirdə olmamışdır. İkincisi, aydın olur ki, professor A.Zamanov iki əlyazmanı – "Mirzə Cəlil Məmmədquluzadənin (Molla Nəsrəddin) tərcümeyi-halı" və "Xatirələrim"i birləşdirərək müəllifliyini H.Məmmədquluzadəyə aid etdiyi kitaba tamamilə başqa ad – "Mirzə Cəlil haqqında xatirələrim" adını qoymuş, yuxarıda haqqında bəhs etdiyimiz saxlama vahidlərindən 378 nömrəli saxlama vahidinə üstünlük vermişdir. Görünür, A.Zamanov da məhz həmin saxlama vahidində yazılanların sonuncu və dürüstləşdirilmiş variant olması fikrinə gəlmişdir.

M.Vəzir isə 3 əlyazmanı birləşdirmiş, kitabın adından Mirzə Cəlilin adını çıxarmış, "Mirzə Cəlil Məmmədquluzadənin (Molla Nəsrəddin) tərcümeyi-halı" əlyazmasından isə Mirzə Cəlilin 1865-1866-cı illərdə doğulduğu yazılmış 377 nömrəli saxlama vahidinə – əlyazmanın ilk variantına üstünlük vermişdir.

Makinada rus dilində yazılmış 229 səhifədən ibarət olan 390 nömrəli saxlama vahidi "Xatirələrim. Həmidə xanım Məmmədquluzadənin xatirələri" adlanır və üzərində redaktə işi aparılmış, bəzi səhifələr bütövlükdə çıxarılmış, bir sira səhifələrdə abzaslar ixtisar edilmişdir. "Pasportuna görə Mirzə Cəlil 1869-cu ildə anadan olub" cümləsi ilə başlaması göstərir ki, A.Zamanov 378 nömrəli saxlama vahidini "Xatirələrim" adlı əlyazma ilə birləşdirmiş, makinada yazdırmış, xeyli ixtisarlar və düzəlişlər aparmış, sonra tərcümə etmiş və onu "Mirzə Cəlil haqqında xatirələrim" adı ilə nəşr etdirmişdir.

Beləliklə, Həmidə xanımın əlyazma nüsxələrində Mirzə Cəlilin doğum tarixi ilə bağlı dörd müxtəlif rəqəm – 1865, 1866, 1867 və 1869 rəqəmləri verilir. Həmidə xanım əvvəlki 3 tarixi yazanda, görəsən, niyə nikah kağızına, uzun müddət bir yerdə yaşadığı həyat yoldaşının pasportuna və ya 1932-ci ildə vəfat edən Mirzə Cəlilin nekroloqundakı 1869-cu il rəqəminə istinad etməyib? Yəqin, ona görə ki, 1869-cu il tarixinə etibar etmirdi.

Digər nüsxələrində tarix qoyulmasa da, Həmidə xanım 389 nömrəli saxlama vahidində həmin nüsxəni 2 may 1935-ci ildə bitirdiyini yazıb və cəmi 2 il yarım əvvəl rəhmətə gedən böyük ədibin pasportundakı və nekroloqundakı rəqəmlərdən bixəbər ola bilməzdi. Üçüncü, sonuncu nüsxədə isə Mirzə Cəlilin sənədlərdəki doğum tarixinə istinad verməyə məcbur olub.

Məlum olduğu kimi, professor Əziz Şərif Mirzə Cəlilin Qori Müəllimlər Seminariyasına daxil olduğu vaxt atası Məmmədqulunun yazdığı ərizəyə istinad edərək onun 1866-cı ildə doğulduğu qənaətində olmuşdur.

Akademik İ.Həbibbəyli isə Məşədi Məmmədqulunun seminariyaya təqdim etdiyi 184 nömrəli doğum şəhadətnaməsinin də saxtalaşdırılaraq Mirzə Cəlilin 1866-cı ildə doğulduğunun yazılmasını səhv tarix hesab edir [6, s.6].

İ.Həbibbəyliyə görə, Məşədi Məmmədqulu 20 iyun 1880-ci il və 10 iyul 1881-ci illərdə seminariyaya göndərdiyi ərizələrdə Mirzə Cəlilin 1869-cu ildə doğulduğunu (daha doğrusu, onun müvafiq olaraq 11 və 12 yaşında olduğunu) yazmış, seminariya rəhbərliyi yaşının az olduğunu səbəb gətirərək onu qəbul etməmişdir. Məşədi Məmmədqulu 21 iyun 1882-ci il tarixli 3-cü ərizəsində Mirzə Cəlilin yaşını saxtalaşdırıb doğum tarixini 1866-cı il göstərdikdən sonra onu seminariyaya qəbul edirlər [6, s.6]. Müəllif yazır: "Bu xoşməramlı xəbər çatan kimi təhsil almaq yanğısı ilə qovrulan C.Məmmədquliyev üçün təcili olaraq zəruri

tərcümeyi-hal sənədləri alınmışdır. 8 avqust 1882-ci il tarixdə Naxçıvan şəhərinin həkimi Xironskinin imzaladığı sağlamlıq vəsiqəsində C.Məmmədquluzadənin 10 fevral 1866-cı ildə anadan olduğu qeyd edilmiş, "heç bir xəstəliyi olmadığı" göstərilmişdir. 14 avqust 1882-ci il tarixdə isə bunun əsasında və 12 nəfər şahidin xeyir-duası ilə İrəvan quberniya ruhani idarəsinin rəisi Axund Xəlil Qazızadənin xəzinə möhürü ilə təsdiq etdiyi doğum haqqında şəhadətnamə hazırlanmışdır. Bu rəsmi sənəddə də Cəlil Məmmədquluzadənin 10 fevral 1866-cı ildə dünyaya gəldiyi öz əksini tapmışdır. Hər iki sənəd Cəlilin seminariyaya girməsinə şərait yaratmağa, Məmmədqulu kişi tərəfindən göndərilmiş ərizədəki 16 yaşı təsdiq etməyə xidmət göstərmişdir" [7].

Beləliklə, İ.Həbibbəyli Mirzə Cəlilə sənədlər düzəldilərkən saxtakarlıq edildiyini etiraf edir.

Alim Mirzə Cəlilin 1873-1878-ci illərdə Naxçıvan şəhərində mollaxanada, daha sonra isə üçsinifli ibtidai məktəbdə təhsil aldığını, bu məktəbin onun ideya-mənəvi təkamülündə dərin izlər buraxdığını yazır [7, s.7]. Burada bir dolaşıqlıq yaranır: əgər Mirzə Cəlil doğrudan da 1869-cu ildə doğulmuş və 1873-cü ildə molla məktəbinə getmişdirsə, həmin vaxt 4 yaşı vardı. 4 yaşında uşağın isə molla məktəbinə getməsi inandırıcı deyil. Halbuki Həmidə xanım onun 7-8 yaşlarında molla məktəbinə getdiyini yazır və bu, daha inandırıcıdır. Həm də molla məktəbi, İ.Həbibbəylinin yazdığı kimi, 5 illik yox, 4 illik idi və onu 11 yaşında bitirən uşaq Quranı sərbəst şəkildə oxuyur və yazı yazmağı öyrənirdi, yəni mollaxana təhsili 7 yaşda başlayır və 11 yaşda bitirdi. Əgər Mirzə Cəlil molla məktəbindən sonra üçsinifli rus-tatar qəza məktəbini də bitirmişdisə, bu vaxt onun artıq 14 yaşı vardı və yalnız bundan sonra seminariyaya oxumağa gedə bilərdi. İ.Həbibbəyli də, başqa müəlliflər də Mirzə Cəlilin 1882-ci ildə Naxçıvan şəhərindəki üçsinifli rus-tatar qəza məktəbini bitirdiyini, həmin ildə də Qori Müəllimlər Seminariyasına daxil olduğunu və oranı 1887-ci ildə bitirdiyini yazırlar. Maraqlıdır, İ.Həbibbəylinin yazdığı doğrudursa, Məşədi Məmmədqulu 1880-ci və 1881-ci illərdə, oğlu Cəlil qəza məktəbini bitirmədən seminariyaya niyə müraciət etmişdi?

Bu sualın məntiqi izahı yoxdur.

Mirzə Cəlil özü bu barədə nə yazır?

M.Füzuli adına Əlyazmalar İnstitutundakı 6 nömrəli şəxsi fondunda ədibin 1926-cı ildə öz dəsti-xətti ilə yazdığı "C.Məmmədquluzadə. Tərcümeyi-halım" adlı əlyazma var (74 nömrəli saxlama vahidi). 76 nömrəli saxlama vahidi isə həmin əlyazmanın 1927-ci ildə Əsəd Tahir adlı müəllif tərəfindən köçürülmüş nüsxəsidir. Hər ikisi ərəb əlifbası ilə azərbaycanca yazılmışdır. Orijinal əlyazmanın 1-ci səhifəsi itmiş, lakin C.Məmmədquluzadənin kitablarında Əsəd Tahirin əlyazmasından götürülmüş həmin hissə etibarlı mənbə qəbul edilərək çap edilmişdir.

Mirzə Cəlil yazır: "Nə vaxt anadan olmuşam? Vallah, bilmirəm, bu barədə heç bir sənədim və yazım yoxdur. Yəni nə odur ki, mənim təvəllüdüm barəsində olan yazını mən itirmişəm. Xeyr, mən onu deyirəm ki, mənim dünyaya gəlməyimi heç bir kəs yazı ilə bir yanda qeyd etməyib; nə o vaxtlar metrik dəftərləri var idi, nə də o vaxtlar atalar övladının doğulmaq yadigarını yazıya götürməyi lazım bilirdilər.

Mənim ata və anam da habelə. Elə qanıram ki, altmış il bundan əqdəm bir kəsə desə idin ki, nə səbəb uşaqların anadan olmağını bir yerə yazmırsan, o sənə təəccüb edərdi (çünki bu söhbət bir lüzumsuz söhbət sanılardı).

Bununla bərabər, bir neçə işarələrlə duya bilərəm ki, indi, yəni hicrətin min üç yüz qırx dördüncü və İsanın təvəllüdünün min doqquz yüz iyirmi altıncı ilində

mənim yaşım, gərək ki, ya əlli altı ola, ya əlli yeddi ola; ya bəlkə əlli səkkiz ola" [4, s.1, s.v.74].

Göründüyü kimi, böyük ədib özü də doğum ilini dəqiq bilmir və 56-58 yaşlarında olduğunu deyir. Buradan onun 1868-1870-ci illərdə doğulduğu anlaşılır. Bu cümlə göstərir ki, Mirzə Cəlil də İ.Həbibbəylinin ciddi hesab etdiyi nikah sənədindəki və pasportundakı 1869-cu il rəqəmini düzgün hesab etmirdi. Belə olan halda akademik İ. Həbibbəylinin onun məhz 1869-cu ildə doğulduğunu, üstəlik doğum tarixi üçün ay və gün də göstərməsi tənqidə dözmür.

Akademik İ.Həbibbəyli yazır: "Ədibin doğulduğu gün haqqında da müxtəlif fikirlər vardır: 9 fevral, 10 fevral, 22 fevral. Bu cəhətdən doğum haqqında şəhadətnamə əsas götürülməlidir. Həmin sənəddə Cəlilin 10 fevralda anadan olduğu yazılmışdır. Lakin oktyabr inqilabından əvvəlki tarixlərlə sonrakı təqvim arasında 13 gün fərq olduğuna görə hal-hazırda Cəlil Məmmədquluzadənin dünyaya gəlməsi 22 fevral kimi dəqiqləşdirilmişdir" [7].

Göründüyü kimi, İ.Həbibbəyli saxta şəhadətnamədəki 10 fevral 1866-cı il doğum tarixindəki 1866 rəqəmini 1869-a, 10 fevralı isə 1917-ci il çevrilişindən sonra bolşevik Rusiyasında tətbiq edilən yeni stillə fevralın 22-nə çevirərək Cəlil Məmmədquluzadəyə doğum tarixi düzəltmişdir. Halbuki ədibin fevralın 10-da, yaxud 22-də doğulduğunu söyləməyə heç bir əsas yoxdur. Əgər 1882-ci ildə Mirzə Cəlilə düzəldilmiş saxta doğum şəhadətnaməsindəki doğum ili kimi 1866-cı ilə etibar edilmirsə, həmin saxta şəhadətnamədəki 10 fevral tarixinə necə etibar etmək olar?

Mirzə Cəlil daha sonra yazır: "...Günün qürubunun qırmızı buludları günbatan tərəfi elə bürümüşdü ki, guya orada yekə bir barıt anbarını od vurub yandırıblar. O vədə yoldaşlarım məni inandırmışdılar ki, orada qızaran Qars şəhərinin yanğısıdır; yəni orada rus və Osmanlı davasıdır. Amma həqiqət bu idi ki, o il doğrudan da Rus–Osmanlı müharibəsi ili idi ki, miladın min səkkiz yüz yetmiş səkkiz və yetmiş doqquzunda vaqe olmuşdu və haman günləri biz səkkiz və doqquz yaşında küçə uşaqlarının coğrafi məlumatımız ancaq o qədər ola bilərdi" [4, s.1, s.v.74].

Qeyd edək ki, Mirzə Cəlil müharibənin tarixində kiçik bir yanlışlığa yol vermişdir. Haqqında söhbət gedən Rus–Türk müharibəsi 1877-ci il aprelin 24-də başlamış və 1878-ci il mart ayının 3-də başa çatmışdır. Rus ordusu həm Balkanlarda, həm də Qafqazda Osmanlı torpaqlarına hücuma keçmiş və 3 həftəlik mühasirədən sonra 1878-ci il noyabr ayının 6-da Qars qalasını işğal etmişdi. Mirzə Cəlilin təsvir etdiyi əhvalatın Qarsın mühasirəsi və ya işğalından sonra baş verdiyini qəbul etsək, 1877-ci ilin noyabrında 8-9 yaşlarında olması onun 1868-ci və ya 1869-cu ildə doğulduğu anlamına gəlir.

Yeri gəlmişkən, H.Məmmədquluzadə düzgün olaraq müharibənin 1877-ci ildə başlandığını yazır.

Mirzə Cəlil yaşı ilə bağlı başqa bir mühüm detala toxunur: "Min səkkiz yüz həştad birdə (1881) İkinci Aleksandrın mücahidlər tərəfindən Peterburqda güllələnməyi mənim yadıma gəlir. ...Naxçıvan şəhər məktəbinin ikinci sinfində oxuyurdum" [4, s.1, s.v.74].

Buradan aydın olur ki, Mirzə Cəlil Naxçıvan şəhərindəki üçsinifli rus-tatar qəza məktəbini 1882-ci ildə bitirmiş və həmin ildə də Qori Müəllimlər Seminariyasına daxil olmuşdur. Məsələnin bu tərəfini nəzərə alsaq, Məmmədqulunun 1880-ci və 1881-ci illərdə oğlunu qəbul etmək üçün seminariya direktoruna ərizə göndərməsi anlaşılmır. Yaşının çatmaması bir yana, 1-ci və ya 2-ci sinfi bitirən şəxsi

seminariyaya necə qəbul etmək olardı? Yəqin ki, orada təhsil haqqında sənəd də tələb edirdilər.

C.Məmmədquluzadə molla məktəbində və rus-tatar məktəbində oxuduğu illəri belə təsvir edir: "Yeddi-səkkiz yaşım olanda molla yanına gedib çərəkə və Quran oxumağım da yadıma düşür. Naxçıvanda o vədə müdərrislikdə məşhur olan Hacı Bağır və Molla Əlinin də məktəbində oxumuşam və Hacı Molla Bağırın falaqqasının çubuqlarının acısını, deyəsən, indi, bu saat genə ayaqlarımda hiss edirəm. Həmin mollaların həsirli və bitli-sirkəli məktəblərində üç-dörd il avara olandan sonra atam məni qoydu şəhər məktəbinə. Üç il orada oxudum".

II Aleksandrın 1881-ci il mart ayının 13-də öldürüldüyünü nəzərə alsaq, yazının məzmunundan aydın olur ki, Mirzə Cəlil 1880-ci ilin payızında I, 1881-ci ilin payızında II sinfi bitirmişdir. 7 yaşında mollaxanaya gedərək 4 il təhsil aldığı mollaxananı isə 1879-cu ildə, 11 yaşında bitirməsi onun 1868-ci ildə doğulduğuna daha bir sübutdur. Əgər onun mollaxanaya 8 yaşında getdiyini qəbul etsək, 1867-ci ildə doğulduğunu da düşünə bilərik, lakin bu ehtimalı qəbul etmirik.

Mirzə Cəlil Qori Seminariyasında təhsil alması haqqında belə yazır: "...Miladın min səkkiz yüz həştad üçüncü ilində (1883) atam məni Naxçıvan şəhər məktəbindən göndərdi Qori şəhər darülmüəlliminində və burada da beş ilin fasiləsində təhsilimi tamam edib həştad yeddinci ilin (1887) payız fəslində İrəvan mahalında Uluxanlı məktəbinə kiçik bir müəllimliyə təyin olundum" [4, s.1, s.v.74].

Mirzə Cəlilin yazısında bir ziddiyyət var. Qori Seminariyasına 1883-cü ildə daxil olduğunu, 5 il təhsil aldıqdan sonra oranı 1887-ci ildə bitirdiyini yazır. Halbuki haqqında yazanlar onun 1882-ci ildə seminariyaya girdiyini qeyd edirlər. Digər tərəfdən, haqqında söhbət gedən seminariyada təhsil 5 yox, 4 illik idi. Belə ehtimal edə bilərik ki, 5 ilin birinci ili hazırlıq şöbəsi, qalan 4 ili isə təhsil illəri olmuşdur. 1882-ci, yoxsa 1883-cü ili ədibin seminariyaya girdiyi il saymalıyıq? Burada iki variant mümkündür: ya Mirzə Cəlil seminariyaya girdiyi ili səhv salır, ya da bunun səbəbi başqadır. Mirzə Cəlil 1882-ci ilin sentyabrında seminariyanın hazırlıq sinfinə girib 1883-cü ilin sentyabrında I sinfə daxil olmalı idi. Belə ehtimal edə bilərik ki, o, hazırlıq sinfində bir qədər gec – 1883-cü ilin əvvəllərindən oxumağa başlamış və həmin ilin payızınadək orada oxumasını da 1 illik təhsil ili sayaraq, seminariyada 5 il təhsil aldığını nəzərdə tutmuşdur.

Mirzə Cəlilin, Həmidə Məmmədquluzadənin əlyazmalarına və akademik İ.Həbibbəylinin tədqiqatlarına əsaslanaraq deyə bilərik ki, C.Məmmədquluzadənin istər 1866-cı, istərsə də 1869-cu ildə doğulması haqqındakı sənədlər saxtadır və sonradan düzəldilmişdir. Ədibin tədqiqatçılarına görə, Mirzə Cəlilə aid mövcud olan ilk rəsmi sənəd 1882-ci ildə tərtib edilmiş doğum haqqındakı saxta şəhadətnamədir.

Xoşbəxtlikdən Mirzə Cəlilin özü, atası və digər qardaşlarının adlarının və doğum tarixlərinin yazıldığı, Mirzə Cəlilin, Həmidə xanımın və tədqiqatçıların da xəbərsiz olduqları sənədlər mövcuddur. Bunlar Çar Rusiyasında tərtib edilən ***kameral təsvirlər***dir. 1828-ci il Türkmənçay müqaviləsi ilə Rusiyaya ilhaq olunan Naxçıvan xanlığının ərazisində 1831-ci ildən başlayaraq 6 dəfə bu cür sənədlər tərtib edilmişdir. Təəssüf ki, indiyə qədər tədqiqatçıların diqqətindən kənarda qalan həmin sənədlər olduqca qiymətli məlumatlarla zəngindir. Mirzə Cəlilin adının qeyd edildiyi ilk rəsmi sənəd 1873-cü ildə tərtib edilmiş Naxçıvan şəhərinin kameral təsviridir və ona inanmamağa heç bir əsas yoxdur. Həmin sənəddə Mirzə Cəlilin ailəsi belə qeyd olunub:

"NAXÇIVAN ŞƏHƏRİNİN KAMERAL TƏSVİRİ. 1873-cü il.

498.1059. Məmmədqulu Hüseynqulu oğlu 37 yaşında; oğlanları: Yusif 8 y.; Cəlil 5 y.; Hüseyn 1 y.

***Qeydlər:***

1. Ailə başçısı heyvandarlıqla məşğul olur;

2. Zaqafqaziya Müəllimlər Seminariyasının şagirdi olduğuna görə Cəlil Məmmədqulu oğlu bu şəhərin vergi mükəlləfiyyətli əhalisinin siyahısından çıxarılmışdır (İş №42/1886-cı il);

3. Məmmədqulu Hüseynqulu oğlu və onun oğlu Ələkbər (onun adı həm də Hüseyndir) 2-ci Tacirlər Gildiyasına qəbul edildiklərinə görə 1897-ci ildə bu şəhərin vergi mükəlləfiyyətli əhalisinin siyahısından çıxarılmışlar (İş №167/1897-ci il)" [1].

Bu sənədi İrəvan Quberniya İdarəsinin müşaviri Navrotski və quberniya katibi Vart tərtib etmiş, Naxçıvan qəzasının rəisi (qəzanın ali vəzifəli şəxsi) Mixail Stepanoviç Avdokov öz imzası ilə təsdiq etmişdir. Ailə üzvlərinin yaşını, aydındır ki, onların atası Məmmədqulu Hüseynqulu oğlundan soruşub yazmışlar.

Bu sənəddən Məmmədqulunun 1836-cı, Yusifin 1865-ci, Cəlilin 1868-ci, Ələkbərin isə 1872-ci ildə doğulduğu aydın görünür. Həm də Tacirlər Gildiyasına üzv qəbul edilməsi Məşədi Məmmədqulunun zəngin şəxs olduğunu sübut edir.

Bu ailə 1886-cı ildə tərtib edilmiş sonuncu, "Əyal (ailə) dəftəri" adlanan sonuncu kameral təsvirdə də qeydə alınmışdır:

"NAXÇIVAN ŞƏHƏRİNİN KAMERAL TƏSVİRİ. 1886-cı il.

444.498. Məmmədqulu Usta Hüseynqulu oğlu 50 y;

Həyəti olan evi var, vergi mükəlləfiyyətlidir. İldə 6 rubl vergi ödəyir. İltizamçıdır (otkupşik).

Oğlanları: 1) Yusif 21 y.; 2) Cəlil 18 y.; 3) Hüseyn (onun adı həm də Ələkbərdir) 14 y.

Ailədə 2 qadın var" [2].

Ailə üzvlərinin yaşı əvvəlki sənədlə düz gəlir. Ailədəki iki qadın, aydındır ki, Mirzə Cəlilin anası Sara xanım və bacısı Səkinədir. Həmidə xanımın haqqında bəhs etdiyi Xəlilin adı burada yoxdur. O, Səkinənin 5-ci, sonuncu övlad olduğunu yazdığına görə, hesab etməliyik ki, ailənin dördüncü övladı olan Xəlil 1873-cü ildən sonra doğulmuş, 1886-cı ildən əvvəl ölmüş və ona görə də bu kameral təsvirlərin heç birinə düşməmişdir.

Diqqəti çəkən ikinci cəhət Məmmədqulu Hüseynqulu oğlunun burada ***iltizamçı*** kimi qeyd edilməsidir. 1877-ci ildə Canpoladov qardaşlarının köməyi ilə duz mədənlərində podratçılığa başlayan Məmmədqulu iltizamçı olmuş, zənginləşmiş və oğlu Ələkbərlə 1897-ci ildə imtiyazlı Tacirlər Gildiyasına üzv qəbul edilmişlər.

Bu kameral təsviri də Naxçıvan qəzasının ali vəzifəli şəxsi – qəza rəisi Pyotr Stepanoviç Kurlin imzalamışdır.

Naxçıvan şəhərinin 1873-cü ildə tərtib edilmiş kameral təsvirində Mirzə Cəlilə dərs demiş Molla Əlinin də adını müəyyən etdik:

"824. Molla Əli Allahyar oğlu 55 y.

*Uşaqlara dərs keçir.*

Ailədə 1 qadın var" [3].

Qeyd edək ki, onun oğlu da həmin işlə məşğul olurdu:

"862. Molla Sadıq Molla Əli oğlu 22 y.

*Uşaqlara dərs keçir.*

Ailədə 2 qadın var".

Qeyd edək ki, elmi dövriyyəyə daxil etdiyimiz kameral təsvirlərin köməyi ilə Mirzə Cəlilin babası Hüseynqulunun yaşını və onun atası Babanın adını da ilk dəfə müəyyənləşdirərək elmi ictimaiyyətə təqdim etdik. Məlum oldu ki, ədibin "Usta Zeynal" hekayəsinin qəhrəmanları da həyatdan götürülmüş real şəxslərdir. Nehrəm kəndinin sakini olan Usta Zeynal 1908-ci ildə Naxçıvan şəhərinə köçmüşdür [5, s.370].

Şübhə yoxdur ki, tədqiqatçılar haqqında söhbət açdığımız sənədlərdə – kameral təsvirlərdə ədəbiyyat tariximizlə bağlı yeni-yeni və olduqca qiymətli digər məlumatlar da tapa bilərlər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. AMDTA), F.978, s.1, s.v.1
2. AMDTA, F.978, s.1, s.v.7, I c.
3. AMDTA, F.978, s.1, s.v.7, II c.
4. C. Məmmədquluzadənin M. Füzuli adına Əlyazmalar İnstitutundakı 6 nömrəli şəxsi fondu. F.6, s.1, s.v.74; 76; 377; 378; 389; və 390
5. Əhmədli, N. Cəlil Məmmədquluzadə neçənci ildə doğulub? //Filologiya məsələləri. 2017, N5, s.362-372
6. Həbibbəyli, İ. Ustad Mirzə Cəlil Məmmədquluzadə.//C.Məmmədquluzadə. Əsərləri. 4 cilddə. I c. Bakı, 2004
7. Həbibbəyli, İ. Üçüncü ərizədəki yanlışlıq. "Azərbaycan" qəzeti, 27 aprel 1993-cü il
8. Məmmədquluzadə, H. Xatirələrim. Bakı, 2013
9. Məmmədquluzadə, H. Mirzə Cəlil haqqında xatirələrim. Bakı, 1981

***Nazir Ahmadli***

## Once again about Jalil Mammadguluzade's date of birth

### *S u m m a r y*

The author of the article published an article on the date of birth of the great Azerbaijani writer Jalil Mammadguluzade in 2017, referring to the memoirs of the writer's wife H.Mammadguluzade translated by Professor A.Zamanov and a new translation of memories by M.Vazir after the publication of the article attracted the author's attention. The new translation shows Mirza Jalil's date of birth as 1865-1866. In A.Zamanov's translation, H.Mammadguluzade writes that based on his passport he was born in 1869. The author of the article decided to refer to the H.Mammadguluzade's original manuscript entitled "Mirza Jalil Mammadguluzade's Biography (Molla Nasreddin)" kept in the 6th fund of the Institute of Manuscripts named after Muhammad Fuzuli. It was found out that H.Mammadguluzade copied and improved the face of the mentioned manuscript twice. A.Zamanov used the last, improved version (storage unit number 378) and M.Vazir preferred the initial option.

In addition, the author of the article studied J.Mammadguluzade's autobiography. In his 1926 autobiography, the author admits that he did not know

exactly when he was born, as he was not issued a birth certificate at the time of his birth. J.Mammadguluzade's biography shows the year of his birth as 1868-1870.

The author of the article determined that the writer was born in 1868 based on the chamber descriptions of Nakhchivan city compiled in 1873 and 1886.

***Назир Ахмедли***

**Еще раз о дате рождения Джалила Мамедкулузаде**

***Р е з ю м е***

После выхода статьи автора о дате рождения известного азербайджанского писателя Джалила Мамедкулузаде в 2017-ом году, его внимание привлек перевод воспоминаний супруги писателя Гамиды Мамедкулузаде другого автора М.Везира. В отличие от первого перевода профессора А.Заманова здесь указывается год рождения писателя 1865-1866-ые годы. В переводе А.Заманова автор, ссылаясь на его паспорт, указывает год рождения Мирзы Джалила 1869-й год. Автор статьи для установления истины обратился к рукописи Г.Мамедкулузаде. Статья находилась в 6-ом фонде писателя Института Рукописей НАНА под названием «Автобиография Мирза Джалила Мамедкулузаде (Молла Насреддин)». Было установлено, что Г.Мамедкулузаде дважды переписала рукопись и усовершенствовала ее. Проф. А.Заманов в переводе использовал усовершенствованный, последний вариант (ед.сохр. 378), а М.Везир предпочла первичный вариант.

Кроме того, автор статьи исследовал автобиографию, написанную самим Дж.Мамедкулузаде. Писатель признает, что он сам не знает в каком году был рожден, поскольку его рождение не было зарегистрировано документально. В написанной самим автором автобиографии он указывает дату рождения 1868-1870-ые годы.

Автор статьи, ссылаясь на камеральное описание города Нахчыван, составленное в 1873 и 1886 годах, установил точную дату его рождения – 1868-й год.